# SALATIN DÜNYASI

## Söz haqqında oxucu sözü

**Son vaxtlar Azərbaycan söz məkanında maraqlı bir tendensiya yaranıb. Ona görə maraqlı deyirəm ki, adətən biz oxucular sovet dönəmində ayrı-ayrı tanınmış insanların, ictimai-siyasi xadimlərin memuarları ilə baş-başa qalırdıq. Daha çox onların xatirələrini oxuyur, onların ömür kitablarının səhifələri arasından dünyalarının da bir növü şahibinə, iştirakçısına çevrilirdik. Belə memuar ədəbiyyat nümunələri bizim üçün, daha çox digər dillərdən çevrilirdi. Və biz də maraqla, acgözlüklə o ünlü insanların barəsində həm öz dillərindən, həm də onları tanıyanların dilindən bilgilər əldə edirdik. Bu gün həmin o memuar ədəbiyyat öz sərhədlərini bir az da genişləndirib. Bunun təbii ki, müsbət çalarları çoxdur. Amma gəlin etiraf edək ki, bu sahədə də bir nizamsızlıq, necə deyərlər, sərhədsizlik var. Deyə bilərsiz ki, sözə, yazıya sahibi məsuliyyət daşıyır, sahibi cavabdehdi. Mən bunu tam səmimi qəbul edirəm. Lakin bəzən yazarlar ya hansısa səbəblərə görə, ya da özlərini dolayısı ilə oxucuya təqdim etmək xatirinə bu cür addımlar atırlar. Lakin...**




Bu gün sizə təqdim edəcəyim kitab Azərbaycan oxucusunun yaxşı tanıdığı və daha çox da müharibəyə, Qarabağa, qaçqınlığa, milli adət-ənənələrə, xalq yaddaşındakı mövzulara müraciət edən Salatın Əhmədlidir. Hər kəs yaxşı bilir ki, Salatın xanım təkcə yazıçı-publisist yox, həm də elm adamıdı. O, Azərbaycan Memarlıq və İnşaat Universitetinin Azərbaycan dili və pedaqogika kafedrasının müdiri, dosentdir. Bunu ona görə xüsusi vurğulayıram ki, Salatın xanımın təkcə bədii yaradıcılıqla yox, həm də elmi yaradıcılıqla çox ciddi şəkildə məşğul olduğu hər kəsə bir daha bəlli olsun. Və oxucu da birmənalı şəkildə öz dəyər verdiyi yazıçısının yaradıcılıq mətbəxindən daha bir bilgi əldə etsin. Bu fikrimin ardınca onu da vurğulamaq istəyirəm ki, Salatın xanım həm də Naxçıvanın, xüsusilə, Şahbuzun el-adət ənənələrini, bu bölgənin məişətini, etnoqrafiyasını kifayət qədər araşdıran və onu kitab halında oxucuya təqdm edən yazarlarımızdan biridir. Bu da onu göstərir ki, istedadlı qələm sahibi, elm adamı olan Salatın Əhmədli özünü bütün mənalarda sözə, ədəbiyyata, elmə həsr etmiş işıqlı vətəndaşlarımızdan biri kimi cəmiyyətdə öz yerini təsdiqlədə bilib. Bu təsdiqin bir nümunəsi də elə "Salatın Əhmədli- 60" kitabıdır. Çox nəfis şəkildə hazırlanıb. Tərtibçi, filologiya üzrə fəlsəfə doktoru, şair, ədəbiyyatşünas Gülxani Pənah, ön sözünün müəllifi AYB-nin kaitibi, şair-dramaturq İlqar Fəhmi olan kitabda ölkənin tanınan ziyalılarının, elm, ədəbiyyat, incəsənət xadimlərinin fikirləri toplanmışdır. Pəngli fotolarla, ömrün müxtəlif anlarını əks etdirən şəkillər də əlavə olunmuş bu kitabda Salatın xanım barəsində Azərbaycanın böyük aydınlarından olan akademiklər Temur Bünyadov, Budaq Budaqov, Nizami Cəfərov, xalq şairləri Zöhrab Tahir, Nəriman Həsənzadə, xalq yazıçısı Çingiz Abdullayev, dəyərli yazıçı-publisist Qəzənfər Paşayev, şairlər Barat Vüsal, Zahid Xəlil, Ələddin İncəli, Nəzakət Məmmədova, Vaqif Nəsib, bəstəkar Tahir Əkbər, jurnalist-tədqiqatçı Akif Aşırlı, Şəfəq Nasir, həmçinin ölkənin digər nüfuzlu imza sahibləri öz fikirlərini, düşüncələrini, duyğularını bu kitabda əks etdiriblər.

Adından da göründüyü kimi, tərtibçi və redaktor bu kitabı Salatın xanımın yubileyi ilə bağlı araya-ərsəyə gətirib. Təkcə bu kitabdakı fikirləri oxumaq Salatın Əhmədlinin həyat və yaradıclığına, onun ictimai həyatdakı fəaliyyətinə bələd olmaq üçün yaxşı bir vəsaitdir. Düşünürəm ki, kitabda yer alan hər bir fikir özü-özlüyündə Salatın Əhmədlinin söz dünyasını ifadə etmiş olur. Məsələn, akademik Teymur Bünyadov yazır ki, "Salatın xanım dupduru, tər-təmiz, dümağ, bəmbəyaz, qayğıkeş elm adamıdır. Çoxlu monoqrafiyaları var. Məqalələri, hətta bir neçə əsərləri başqa dillərə tərcümə edilib".

Akademik Muxtar İmanov isə yazır ki, "professional mənada götürsək belə, bir alim kimi, bir folklorşünas kimi Salatın xanım da böyük iş görür". Biz də bu məqamda onun tədqiqatçı-alim obrazını görürük. Akademik Nizami Cəfərov isə vurğulayır ki, "Salatın xanım xalqdan gələn, dili gözəl bilən xanımdır".

**Bütün bu kiçik qeydlər bir daha onu göstərir ki, Salatın Əhmədlinin 60 illik həyat yolu onun təkcə fərdi, özəl ömrü deyil. O həm də oxucuya, ədəbiyyata, elmə həsr olunmuş ömürdü. Ona görə də mənalıdı, dəyərlidi, örnəkdi, "Yada düşdü" jurnalının təsisçisi, şairə Nəzakət Məmmədovanın dediyi kimi, "Salatın xanım üçün önəmli olan insan faktorudur". Mən də bu kitabla yaxından tanış olandan sonra bir daha oxucusu olduğum Salatın Əhmədlinin həyatının maraqlı anlarının şahidinə çevrildim. Düşünürəm ki, o anların ömrü hələ çox uzanacaqdır. Çünki Salatın Əhmədli özü bunu qələmilə, sözüylə qazanan yazarlarımızdan biridir.**

**Əbülfət MƏDƏTOĞLU**